

# Qarşılıqlı etimada və strateji tərəfdaşlığa əsaslanan münasibətlər

**Bu gün beynəlxalq birliyin ən fəal üzvlərindən birinə çevrilən Azərbaycan regionda və dünyada mehriban qonşuluq siyasəti yürüdür, böyük dövlətlərlə, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığı daha da möhkəmləndirir. Azərbaycanın xarici siyasət prioritetləri arasında ABŞ-la münasibətlər daim mühüm yer tutub. Bu münasibətlər ikitərəfli və çoxtərəfli əməkdaşlığın müxtəlif sferalarını əhatə etməklə, hər iki dövlətin mili maraqlarına cavab verməkdədir.**

ABŞ Prezidenti Cozef Baydenin Müstəqillik Günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə göndərdiyi təbrik məktubu diqqətlə seçilmiş diplomatik ifadələr və xüsusi məzmunu ilə əlamətdardır. Çünki məktubda həm 30 illik müddət ərzində ABŞ-Azərbaycan münasibətlərinin keçdiyi yola nəzər salınır, həm əldə edilən ortaq nailiyyətlər vurğulanır, həm də ikitərəfli və çoxtərəfli əməkdaşlığın perspektivləri ilə bağlı mühüm fikirlər bildirilir. Ən önəmlisi isə Ermənistan və Azərbaycan arasında yarana biləcək mümkün sülhlə bağlı ABŞ prezidentinin fikirləridir. C.Bayden bildirir ki, Amerika Birləşmiş Ştatları bütün Qafqaz və Transxəzər regionunun çiçəklənməsinə imkan verəcək Azərbaycan ilə Ermənistan arasında diplomatik təmasların intensivləşdirilməsinə və Azərbaycanın iqtisadi, nəqliyyat və insanlararası əlaqələrinin qurulmasına kömək etməyə hazırdır. Azərbaycan Prezidenti İlham Əliyev 4 İyul - Müstəqillik Günü münasibətilə Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydenə təbrik məktubu ünvanlayıb. Dost Amerika xalqına öz adından və Azərbaycan xalqı adından ən səmimi təbriklərini və xoş arzularını çatdıran dövlət başçısı məktubda qeyd edib: "Cənubi Qafqazda davamlı sülhün, iqtisadi tərəqqinin bərqərar olması üçün əlverişli şəraitin formalaşdığı bir zamanda biz ABŞ-ın Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasında, kommunikasiyaların açılmasında, insanlararası təmasların yaradılmasında mühüm rol oynaya biləcəyinə inanırıq. Eyni zamanda tərəfimizdən təqdim olunan beş prinsip əsasında Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması prosesinə ABŞ-ın dəyərli töhfə verə biləcəyi qənaətindəyik. İşğaldan azad edilmiş ərazilərimizdə Ermənistan tərəfindən basdırılmış minalar burada apardığımız bərpa və yenidənqurma işlərinə ən böyük əngəl olaraq qalmaqdadır. Biz minatəmizləmə işində ABŞ-ın ölkəmizə göstərdiyi yardımı təqdir edirik. Ermənistan-Azərbaycan münaqişəsi zamanı itkin düşmüş 4000-ə yaxın soydaşımızın taleyinin aydınlaşdırılması məsələsində də ölkənizin dəstəyinə böyük ümidlər bəsləyirik".

Dünyanın qlobal güc mərkəzlərindən biri olaraq ABŞ-la münasibətlərin normal səviyyəyə qaldırılması işində əlbəttə ki, ölkəmizin demokratik dünyaya inteqrasiyası istiqamətində atdığı davamlı addımlar mühüm rol oynamışdır. Digər tərəfdən ölkəmizin Avropanın enerji təchizatı sahəsində əhəmiyyətli rolu da Azərbaycanla ABŞ arasındakı münasibətləri dərinləşdirən faktorlardandır. Təsadüfi deyildir ki, "Əsrin müqaviləsi"ndə və sonrakı mərhələlərdə bağlanmış digər neft-qaz kontraktlarında xeyli sayda ABŞ şirkəti təmsil olunur. Ölkələrimiz arasında münasibətlərin mühüm istiqamətlərindən biri isə qlobal təhlükəsizlik və terrorizmlə mübarizədir. Azərbaycanın etibarlı tərəfdaş olması, gündən-günə daha da güclənməsi, daxili və xarici siyasətini daim qlobal çağırışların tələbləri çərçivəsində yeni meyarlarla zənginləşdirməsi və Cənubi Qafqazın aparıcı dövləti kimi regionu qarşıdurma deyil, əməkdaşlıq məkanına çevirmə istiqamətində mühüm diplomatik-siyasi səylərini əsirgəməməsi ABŞ-ın diqqətini cəlb etməyə bilməz. Bu reallığı ifadə edən Amerikanın dövlət xadimləri, siyasətçiləri və ekspertləri Amerika üçün ölkəmizin, hətta inkişaf etmiş Avropa dövlətlərindən daha etibarlı tərəfdaş, müttəfiq olduğunu qeyd edirlər. Onların qənaətinə görə, yaxın gələcəkdə ABŞ-ın regiondakı ən yaxın müttəfiqi Azərbaycan olacaqdır.

*Amerika Birləşmiş Ştatları Cənubi Qafqazda iqtisadi tərəqqinin bərqərar olmasını, davamlı sülhü dəstəkləyir*

ABŞ dövlət katibi Entoni Blinken Azərbaycan ilə Ermənistan arasında aparılan danışıqları və bu xüsusda sülh sazişinin bağlanmasını dəstəklədiyini vurğulayıb və bunun regionda davamlı sülhün təmin olunmasına töhfə verəcəyinə ümidvar olduğunu ifadə edib. Blinken bu barədə Prezident İlham Əliyevlə telefon danışığı zamanı bildirib. Entoni Blinken, həmçinin ABŞ-ın Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası və demarkasiyası, nəqliyyat xətlərinin açılması prosesinə dəstək verməyə hazır olduğunu vurğulayıb. Ölkəmizin Xarici İşlər Nazirliyində 28 fevral 2022-ci il tarixində Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə keçirilən tədbirdə ABŞ-ın Azərbaycandakı səfiri Li Litzenberqer Azərbaycan və ABŞ arasında əlaqələrin müxtəlif sahələri, o cümlədən, qanunun aliliyi, iqtisadiyyat, enerji, təhlükəsizlik sahələrini əhatə etdiyini və iki ölkə arasında sözügedən sahələrdə tərəfdaşlıq əlaqələrinin qurulduğunu qeyd edib. Azərbaycanın bir çox beynəlxalq sülhməramlı əməliyyatlara töhfə verdiyini bildirən səfir, bu xüsusda Azərbaycan sülhməramlılarının Əfqanıstanda təhlükəsizliyin təmin olunması istiqamətində fəaliyyətini qeyd edib, həmçinin Azərbaycanın Əfqanıstana ilk sülhməramlılar göndərən və öz sülhməramlılarını sonuncu çıxaran ölkə olduğunu minnətdarlıqla vurğulayıb. L.Litzenberqer ABŞ-ın gələcəkdə də sabitliyin, rifahın qorunması istiqamətində sadiq tərəfdaş olacağını bildirib.

Son illər müstəqil Azərbaycan dövlətinin sivil, demokratik dünyanın bütün dövlətləri, o cümlədən, planetimizin aparıcı ölkələrindən olan Amerika Birləşmiş Ştatları ilə qarşılıqlı inam və etimad əsasında əməkdaşlığı genişlənməkdə davam edir. Azərbaycan Prezidenti İlham Əliyevin müdrik liderliyi ilə çağdaş dünya birliyində uğurlu dövlət idarəçiliyi modeli kimi qəbul edilir və ölkəmizə adekvat münasibət nümayiş etdirilir. ABŞ-ın ən böyük yəhudi qəzetlərindən olan "The Jewish Press"də "Ermənistanla Azərbaycan arasında sülh perspektivləri yaxşılaşıb - Prezident Əliyev" sərlövhəli məqalə dərc olunub. Diasporla İş üzrə Dövlət Komitəsindən bununla bağlı verilən məlumata görə, siyasi şərhçi Reyçel Avrahamın qələmə aldığı məqalədə Prezident İlham Əliyevin bu ilin aprelində Dünya Azərbaycanlılarının V Qurultayının keçirildiyi Şuşa şəhərində çıxışına istinadən erməni təcavüzünün gətirdiyi bütün ağrılı-acılı məqamlara, işğala və vəhşiliklərə rəğmən, Azərbaycan tərəfinin sülhün bölgənin gələcəyi üçün zəruri olduğuna inandığı və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması məsələsinin indi gündəmdə olduğu bildirilib. Vurğulanıb ki, Azərbaycanın irəli sürdüyü beş prinsipdən ibarət konkret təklif Ermənistan tərəfindən qəbul edilib və bununla da Ermənistan rəhbərliyi Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, heç bir ərazi iddiasının olmadığını, gələcəkdə də olmayacağını rəsmən bəyan edib. Azərbaycanın dövlət başçısı bunun münaqişədən sonrakı dövr üçün dönüş nöqtəsi hesab edildiyini və ölkəsinin danışıqları həmin beş prinsip əsasında davam etdirmək niyyətində olduğunu bildirib. Prezident İlham Əliyev hazırda hər iki ölkənin xarici işlər nazirləri və digər nazirləri tərəfindən işçi qruplarının yaradılması prosesinin getdiyini qeyd edərək, yaxın vaxtlarda konkret danışıqların başlanmalı olduğunu vurğulayıb, Ermənistanla Azərbaycan arasında diplomatik əlaqələrin yarana bilməsi imkanını diqqətə çatdırıb. "ABŞ Azərbaycanla Ermənistan arasında ikitərəfli formatda sülh danışıqları üzrə vasitəçi kimi iştirak etməyə hazırdır" bunu ABŞ-ın Ermənistandakı səfiri Linn Treysi mətbuata müsahibəsində bildirib. Daha bir mühüm məqam da diqqəti cəlb edir. Belə ki, "ABŞ Bakı və İrəvanı münasibətləri normallaşdırmağa və hərtərəfli sülh sazişi bağlamağa çağırır". Bunu ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays brifinqdə deyib. "ABŞ tərəflərə kömək etməyə hazırdır. Həll olunmamış məsələləri çözmək lazımdır". "Biz Cənubi Qafqaz regionu üçün dinc, demokratik və firavan gələcəyin təşviqinə sadiq qalırıq. Sülhə nail olmaq üçün Azərbaycan və Ermənistana kömək etməyə hazırıq". ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Ned Prays qeyd edib ki, ABŞ aprelin 6-da Brüsseldə Ermənistan və Azərbaycan rəhbərləri arasında görüşü, o cümlədən sülh danışıqlarına hazırlığın müsbət dinamikası və sərhədlərin delimitasiyası üzrə ikitərəfli komissiyanın formalaşdırılmasını alqışlayıb. "ABŞ-ın dövlət katibi Entoni Blinkenin bir gün əvvəl, aprelin 5-də iki liderlə danışıqlar zamanı vurğuladığı kimi, biz Ermənistan və Azərbaycan arasında gələcək sülh danışıqlarının təşviqinə davam edirik", - deyə N.Prays bildirib.

**Mustafa KAMAL,**
**"Respublika".**